# BOLQARISTAN RESPUBLİKASININ MÜQƏDDƏS KLİMENT OXRİDSKİ ADINA SOFİYA UNİVERSİTETİNDƏ AZƏRBAYCAN DİLİ VƏ MƏDƏNİYYƏTİ MƏRKƏZİ










25 sentyabr 2013-cü il tarixində Bolqarıstan Respublikasının Müqəddəs Kliment Oxridski adına Sofiya Universitetində Azərbaycan Dili və Mədəniyyəti Mərkəzi açılmışdır.

Bakı Slavyan Universiteti tərəfindən ilk dəfə olaraq MDB məkanından kənarda yaradılmış Azərbaycan Dili və Mədəniyyəti Mərkəzinin açılışı Bolqarıstanın Müqəddəs Kliment Oxridski adına Sofiya Universitetinin 125-illiyi ərəfəsində Universitetin Şərq Dilləri və Mədəniyyətləri Mərkəzinin fəaliyyət göstərdiyi binada yerləşən Mərkəzdə təntənəli şəkildə keçirilmişdir.

Azərbaycan Dili və Mədəniyyəti Mərkəzinin əsas vəzifəsi Azərbaycan və Bolqarıstan arasında mədəni əlaqələri inkişaf etdirmək, gənclərin hər iki ölkənin mədəniyyətinə, təhsilinə, maarifinə və elminə marağını artırmaq və həmçinin Sofiya universitetində Azərbaycanşünaslıq istiqamətini yaratmaq və bu sahədə tədris prosesinin təkmilləşdirilməsinə kömək etməkdir.

Mərkəz Azərbaycan dili, mədəniyyəti və tarixinin yayılmasına geniş imkanlar yaradır. 31 oktyabr 2013-cü il tarixindən Sofiya Universitetinin Klassik və yeni filologiya fakültəsində türkologiya ixtisasının tələbələri üçün "Azərbaycan dili" seçmə fənni, 26 fevral 2015-ci il tarixindən isə ADMM-də "Azərbaycanda

multikulturalizm” seçmə fənni, 2023-cü ildən “Azərbaycan ədəbiyyatı” və “Azərbaycan dilində ədəbi mətnlər” fənnləri üzrə dərslər keçirilir.

Bundan əlavə Mərkəzin müdiri Sofiya Şıqayeva-Mitreska həm tələbələri ilə birlikdə Azərbaycan klassik ədəbiyyatının əsərlərini Azərbaycan dilindən Bolqar dilinə tərcümə edir, həm də müxtəlif kitabların redaktorudur. Son 10 il ərzində Mərkəzin dəstəyi ilə Hüseyn Cavidin “Maral” pyesi, Cəlil Məmmədquluzadənin əsərləri, Nizami Gəncəvinin qəzəlləri, “Heydər Əliyev – 100”, Elçin Əhmədovun “Şuşa” kitabı, Marqarita Pavlovanın “Plamıçka və Plamıçko” kitabları işiq üzü görüblər.

2023-cü ilin aprel ayında Bakı Slavyan Universitetinin rektoru Anar Nağıyevın Mərkəzə səfəri baş tutmuş və səfər zamanı Mərkəzdə ümummilli lider Heydər Əliyevin anadan olmasının 100-illiyinə həsr olunmuş güşə açılmışdır. 2025-ci ilin aprel ayında isə Bakı Slavyan Universitetinin rektoru Anar Nağıyev öz səfəri çərçivəsində Mərkəzdə Azərbaycan dilini öyrənən tələbələrlə görüş keçirmiş və Sofiya Universitetində "Azerbaıjan as a strategıc partner and regıonal leader“ mövzusunda mühazirə oxamuşdur.

Mərkəz müasir texniki avadanlıqlarla (kompüterlər, printer, skaner, proyektor) təchiz edilmişdir. Bundan əlavə mərkəzin nəzdində kitabxana fəaliyyət göstərir. Hazırda kitabxana fondu 100-ə yaxın kitabdan – Azərbaycan dilində dərsliklər, vəsaitlər, lüğətlər, bədii ədəbiyyat, Azərbaycan tarixi, siyasəti, dini, mədəniyyəti və iqtisadiyyatı haqqında materiallardan ibarətdir. Mərkəzdə oxucular Azərbaycan dilində jurnallar və qəzetlər, video və audio kasetlər, CD və DVD disklərlə də təmin olunur.

Mərkəzdə Azərbaycanın tarixi, mədəniyyəti və adətləri ilə bağlı tədbirlər, foto və kitab sərgiləri, Azərbaycan haqqında filmlərin nümayişi, bu ölkənin dövlət, mədəniyyət və elm xadimləri ilə görüşlər təşkil edilir.

Mərkəz Azərbaycanın dövlət xadimləri, ictimai və mədəni həyatının nümayəndələri ilə hər il keçirilən görüşlərin təşkilində vasitəçi olan Azərbaycan Respublikasının Bolqarıstandakı səfirliyi ilə daim sıx əlaqədədir. Mərkəz səfirlik tərəfindən təşkil olunan bütün tədbirlərdə fəal iştirak edir və bəzi tədbirləri birgə keçirir, bəzilərinin hazırlanmasında bilavasitə iştirak edir.